SEVİL BEYNƏLXALQ
QADIN SƏNƏDLİ
FİLM FESTİVALI



VI Sevil Beynəlxalq Qadın
Sənədli Film Festivalı

5-13 iyul, Bakı

# PROQRAM

"SevilFest"ə dəstək ol, kofe.al!

British Embassy Baku

GOETHE INSTITUT

INSTITUT FRANÇAIS AZERBAÏDJAN

EMBASSY OF BELGIUM

# Kateqoriyalar

Festivallardan seçmələr

Masterklass

Yerli qısametrajlı sənədli film

Retrospektiv: Şantal Akerman

Beynəlxalq qısametrajlı sənədli film

Xüsusi nümayiş

Panel müzakirəsi

# 5 iyul

## Açılış mərasimi

5 iyul 19:00 Landmark / CineClub

Festivallardan seçmələr

## Oğurlanmış Planetim

Fərəhnaz Şərifi | İran, Almaniya | 82 dəq.

Dünya sənə “rəqs etmə” desəydi, nə hiss edərdin?
1979-cu ildə İran İslam İnqilabının qadın azadlıqlarını tədricən boğmağa başladığı bir zamanda Tehranda doğulan rejissor Fərəhnaz Şərifi üçün bu sual abstrakt deyil — bu, onun həyatının sualıdır. “Oğurlanmış Planetim” filmində kamera onun üçün həm qalxana, həm də qılınca çevrilir: o, gizli rəqs məclislərini, qapalı qapılar arxasında eşidilən gülüşləri və yasaqlanmış sevincin ağrılı gözəlliyini lentə alır. Eyni zamanda o, tanımadığı insanlara aid ev videolarını toplayır, özünün itirməkdə olduğu xatirələrinə başqalarının videoarxivləri ilə yeni bir baxış əldə edir. Alsheymer xəstəliyindən əziyyət çəkən anası Fərəhnaza unutqanlıqla mübarizə aparmaq üçün ürək-dirək verir. 2022-ci ilin payızında başlayan “Qadın, Həyat, Azadlıq” üsyanı milyonlarla insan, o cümlədən Fərəhnaz üçün də dönüş nöqtəsinə çevrilir. Bir vaxtlar səssiz və təkbaşına olan bu müqavimət indi güclü və ortaq bir hayqırtıdır.

5 iyul 20:00 Landmark / CineClub

# 6 iyul

Masterklass

## Kino tarixinin görünməz qadınları - Reyçel Pronqerin təqdimatında

6 iyul 15:00 Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

# Novruz alovu

Nihal Atasoy | Azərbaycan, Türkiyə | 17 dəq.

Unudulmuş bir məktub sizi ailənizin heç vaxt dilə gətirməyə cəsarət etmədiyi həqiqətlərlə üz-üzə qoysaydı, nə edərdiniz? "Novruz alovu" filmində belə bir məktub Aygünü 30 il geriyə, Gəncə şəhərinə aparır. Olduqca şəxsi ailə hekayəsindən ilhamlanan rejissor Nihal kamerasını öz doğmalarına çevirərək həssas anlarını lentə alır. Aygün — Nihalın anası — illər əvvəl yazılmış bir məktubu tapdıqda bacısı Könüllə birlikdə ataları ilə bağlı uzun müddət gizli qalmış həqiqəti öyrənir. Bu elə anaları Səadət tərəfindən gizli saxlanılıb. Səadət Sovet İttifaqının dağılmasından sonra 90-cı illərin iqtisadi çətinlikləri səbəbilə qızlarını da götürərək daha yaxşı bir həyat ümidi ilə Türkiyəyə köçüb. Bu gediş onların arasında illərlə davam edən susqunluq və cavabsız suallar ortaya çıxarıb. İndi isə baharın və yenilənmənin simvolu olan Novruz bayramı fonunda bu üç qadın duyğusal və gərgin bir qarşılaşmada bir araya gəlir, ailə tarixçələrini yenidən nəzərdən keçirirlər.

**Nümayişdən sonra rejissor Nihal Atasoy ilə müzakirə nəzərdə tutulub**

6 iyul 16:00 Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

# Yolsuzluq

Səməd Ağayev | Azərbaycan | 20 dəq.

Ucqar dağ kəndində dərs deyən ibtidai sinif müəllimməsi, həyatın bütün çətinliklərinə baxmayaraq, uşaqlara təhsil verməyə çalışır. Kənddə yol yoxdur, infrastruktur bərbad vəziyyətdədir, həkim tapılmır və savadsızlıq geniş yayılıb.
Filmdə müəllimənin dilindən kəndin acı reallıqları üzə çıxır: xəstələnən uşaqlar yardım ala bilmir, müəllimlər kənddə qalmaq istəmir, yeni müəllimlər isə gəlməkdən çəkinir. Oğlanlar Rusiyaya işləməyə, qızlar isə erkən yaşda ərə getmək istəyir.

Yolsuzluq – yalnız fiziki yolların deyil, həm də ümidlərin və imkanların yoxluğunun simvoluna çevrilən bir kəndin hekayəsidir.

**Filmdən sonra rejissor Səməd Ağayevlə müzakirə nəzərdə tutulub**

6 iyul 16:45 Landmark / CineClub

Retrospektiv: Şantal Akerman

# Şərqdən

Şantal Akerman | Belçika | 110 dəq.

"Şərqdən" filmində Şantal Akerman Berlin divarının sökülməsindən sonra keçmiş Sovet ölkələrinin həqiqətlərini və mutasiyasını lentə alır. Bu, nə danışıla, nə izah edilə bilən bir filmdir. İnsanlar küçələrdə dayanır, avtobus gözləyir, pəncərədən baxır... Kamera isə onları sakitcə müşahidə edir. Akerman səssiz səhnələr, uzun planlar və heç bir müsahibə almadan bu dövrün kollektiv portretini yaradır. Postsovet məkanına, bəlkə də, bizə tanış olan kadrlara baxarkən, həm vizual gözəlliyə, həm də zamanın donub qaldığı hissinə şahid oluruq. Bu film tarixi dəyişikliklərin astanasında olan bir dünyanın poeziyasıdır - səssiz, amma güclü.

---

**Nümayişdən sonra filmin montajçısı Kler Aterton ilə müzakirə olacaq**

---

6 iyul 18:10 Landmark / CineClub

# 7 iyul

Beynəlxalq qısametrajlı sənədli film

# Qanlı xaos

Meqan Vennberq | Kanada | 10 dəq.

Meqan 40 yaşına çatanda orqanizmi ona qəribə siqnallar göndərməyə başlayır – aybaşısı sanki "partlayış rejiminə" keçir! O da düşünür ki, yəqin, uşaqlığı ondan inciyib: "Bu yaşa qədər mənə bir uşaq vermədin, indi gör başına nə oyun açıram!"
Amma vəziyyət, zarafat bir yana, ciddiləşir və Meqan qanaxmanı dayandırmaq üçün müxtəlif müayinələrdən keçir. Nəticədə məlum olur ki, onun uşaqlığında mioma (fibroma) adlı xoşxassəli şişlər var. "Qanlı xaos" Meqanın həkim kabinetləri və diaqnozlar arasında yaşadığı həm emosional, həm də yumorla dolu macərasını izləyir. Üstəlik, Meqan bu macərada tək deyil: uşaqlığı da onunla "danışır" – özü də aktrisa Suzan Kentin səsi ilə!

7 iyul 16:00 Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

# Sənə demişdim

Mələk Əlsəyyad | Misir | 26 dəq.

İllərlə dözülməz menstruasiya ağrıları və izaholunmaz simptomlardan sonra Mələyə nəhayət diaqnoz qoyulur: o, endometriozdan əziyyət çəkir — menstruasiya olan hər 10 nəfərdən birində rast gəlinən xroniki iltihabi xəstəlik. Bu qədər geniş yayılmasına baxmayaraq, xəstəliyin nə səbəbi məlumdur, nə də müalicəsi var. Üstəlik, bu xəstəlik çox zaman ciddi qəbul edilmir. Hətta Mələyin öz anası tərəfindən belə. "Sənə demişdim" filmində Mələk öz ağrısı, bədəni və gələcək arzuları ilə çətin və təlatümlü bir münasibəti çözməyə çalışır. Özünə şübhə və utanc hissi ilə dolu bu yolda o, səbri daşmış digər pasiyentlərin də olduğu "Endo-Döyüşçülər" dünyasına daxil olur. Bəlkə də, bu yolda o, "Bu xəstəliklə necə yaşamalıyam?" sualına cavab tapmağa ümid edir.

**Filmdən sonra müzakirə nəzərdə tutulub**

7 iyul | 16:10 | Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

# Görünməz olmağın uğur hekayəsi: iki doğru, bir yalan

Günel Qədirova | Azərbaycan | 20 dəq.

Bu film peşələri haqqında maraqlı aktları bölüşən 10 azərbaycanlı qadın rəssamı bir araya gətirir. "İki doğru, bir yalan" adlı komanda quruculuğu oyununa bənzər şəkildə qurulan film reallıqla uydurma arasındakı sərhədi bulanıqlaşdırır. Tamaşaçılar hekayələrin hansının həqiqət, hansının isə qurama olduğunu ayırd etməyə çalışırlar. Nəticədə, film bir tapmacaya çevrilməklə yanaşı, sənətçilərin özünəməxsus hekayələrini və təcrübələrini nəsillərarası perspektivdə ötürməyə nail olur.

7 iyul | 17:00 | Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

## Gərək getməyəydik, Valeria

Atanur Nəbiyeva | Azərbaycan | 9 dəq.

10 ildir ki, evindən uzaqda yaşayan rejissor Atanur qısa müddətlik Neapola səfər edir. O özü də evindən uzaqda olan Valeria adlı bir qadına məxsus kiçik bir mənzil kirayələyir. Evə yerləşərkən Atanur köhnə bir kamera tapır. Kamerada gördükləri onu təəccübləndirir: Bakı küçələrinin təsvirləri və tanış üzlər. Bu şəkillər və evdəki bəzi detallar vasitəsilə Atanur hiss edir ki, Valeria ilə onun həyatı başqa yerlərdə keçsə də, görünməz bir şəkildə bir-birinə bağlıdır. Dəniz və zamanla birləşən əkiz sahil şəhərləri - Bakı və Neapol - arasında, Atanur heç vaxt görmədiyi bir qadında özünün əksini görməyə başlayır. Getməzdən əvvəl Valeriaya məktub yazır. Əslində bu məktub həm də özünə yazılmış bir məktubdur — bu, başqasının səssizliyində öz evini axtaran iki qadının sakit söhbətidir.

---

**Filmdən sonra rejissor Atanur Nəbiyeva və Günel Qədirova ilə müzakirə nəzərdə tutulub**

---

7 iyul 17:20 Landmark / CineClub

---

Masterklass

## Montajçının görünməyən əlləri: Kler Aterton ilə ustad dərsi

7 iyul 18:30 Landmark / CineClub

---

Retrospektiv: Şantal Akerman

## Cənub

Şantal Akerman | Belçika | 70 dəq.

Akerman ABŞ-nin cənub ştatlarına - Vilyam Folkner və Ceyms Boldvinin izlərini daşıyan torpaqlara səyahət edərək həyatın ritmini lentə almaq istəyirdi. Lakin gəlişindən qısa müddət sonra Texasın Cesper şəhərində baş verən dəhşətli bir hadisə hər şeyi dəyişir: Ceyms Börd Jr. adlı afro-amerikan bir kişi üç ağdərili tərəfindən amansızlıqla döyülür, yük maşınına zəncirlənərək beş kilometr süründürülür və qəddarcasına öldürülür. Bu faciə Akermanın filminin istiqamətini kökündən dəyişir. “Cənub” səssiz, lakin güclü bir dillə icmanın reaksiyasını müşahidə edir. Film həmçinin nifrət ideologiyasını yayan mütəşəkkil qrupların mövcudluğuna toxunur, irqçiliyin bu bölgənin kollektiv yaddaşında buraxdığı dərin izləri araşdırır.

7 iyul 20:00 Landmark / CineClub

# 8 iyul

Masterklass

## Rada Şeşiç ilə masterklass: Real hadisələri yaradıcı şəkildə necə göstərməli?

8 iyul 17:00 Landmark / CineClub

---

Festivallardan seçmələr

## Sonuncu səfir

Natali Halla | Avstriya | 80 dəq.

Taliban hakimiyyətə gələndən sonra Vyanada fəaliyyət göstərən Əfqanıstan səfiri Manijə Baxtari qəribə vəziyyətlə üzləşib: o həm köhnə hökuməti qaçmış, həm də yeni hökuməti beynəlxalq aləm tərəfindən tanınmayan bir ölkəni təmsil edir. Maliyyə və inzibati böhranla üzləşməsinə baxmayaraq, Manijə Baxtari səfir kimi Talibana qarşı çıxaraq Əfqanıstan qadın və qızlarının hüquqları uğrunda mübarizə aparır. Özünün qurduğu “Qız uşaqları” layihəsi ilə o, Əfqanıstanda məktəbli qızların təhsil almasına gizli imkan yaradır, eyni zamanda səfir kimi Talibana qarşı siyasi müqavimət təşkil edir. Getdikcə çətinləşən vəziyyətdə Manijə əfqan qadınlarının ən tanınmış beynəlxalq təmsilçilərindən birinə çevrilir. O inanır ki, “sülh müharibənin olmaması deyil, ədalətin mövcudluğudur”.

8 iyul 18:30 Landmark / CineClub

---

Festivallardan seçmələr

## Ana Plata

Viktoriya Mepplbek | Birləşmiş Krallıq | 90 dəq.

BAFTA mükafatlı britaniyalı rejissor Viktoriya Mepplbek tərəfindən 20 il ərzində çəkilmiş “Ana Plata” rəqəmsal dövrdə tək ana olmağın səmimi və təsirli salnaməsidir. Viktoriya 38 yaşında tənhalıq, hamiləlik və maddi problemlərlə üz-üzə qalır. Müstəqil rejissorluqla analığı birləşdirə bilmədiyi üçün televiziya karyerasını yarımçıq qoymağa məcbur olur. Bunun yerinə o, kamerasını özünə və oğlu Cimə doğru çevirərək hamiləlikdən universitetə qədər olan həyatlarını beş nəsil smartfon vasitəsilə sənədləşdirir. Yumor, şəfqət və səmimiyyətlə dolu olan film, ana fədakarlığı, məişət həyatındakı xaos, süd vəzi xərçəngi və emosional möhkəmlik kimi mövzulara toxunur. “Ana Plata” göstərir ki, ən güclü hekayələr bəzən bir evin dörd divarı arasında yaşanır.

---

**Filmdən sonra rejissor Viktoriya Mepplbek ilə müzakirə nəzərdə tutulub**

---

8 iyul 20:00 Cinemastercard - Azerbaijan Cinema

# 9 iyul

Masterklass

## Laura Malvi ilə masterklass. Feminizm və kino mədəniyyətinin ilkin  dövrləri haqqında xatirələr: tarix, nəzəriyyə və avtobioqrafiya

**Tədbir Landmarkda baş tutacaq, Laura Malvi onlayn qoşulacaq.**

9 iyul 17:30 Landmark / CineClub

Yerli qısametrajlı sənədli film

## Rəqs edən qız

Pərvanə Quliyeva | Azərbaycan | 16 dəq.

10 yaşlı Məlahət yataqxanada yaşayır və rəqqas olmaq arzusundadır. Atası illər əvvəl bacısının doğulmasından, ailəyə yeni bir qız uşağının gəlişindən sonra onları tərk edib. Birinci Qarabağ Müharibəsi zamanı zədələnmiş və qaçqınlar üçün sığınacaq kimi istifadə olunan binada doğulan Məlahət öz icmasındakı digər qızları da ruhlandırmaq üçün rəqs videoları çəkir. Pişiyi və kiçik bacısı Leyla ilə birlikdə Məlahət cəmiyyətin stereotiplərinə qarşı çıxmaq üçün rəqs edir.

9 iyul 19:00 Landmark / CineClub

Beynəlxalq qısametrajlı sənədli film

## Sanki dünya onları udmuşdu

Natalia Leon | Fransa, Meksika | 14 dəq.

Xaricdə yaşayan gənc Oliviya keçmişinə qovuşmaq üçün Meksikadakı doğma qəsəbəsinə qayıdır. Onun uşaq vaxtı üzləşdiyi zorakılıqlar isə yaddaşlardan silinməyib. Bu səyahət Oliviyanın barışa bilməyəcəyi xatirələri alovlandırır.

9 iyul 19:16 Landmark / CineClub

Beynəlxalq qısametrajlı sənədli film

## Qızlar sevişmək üçün yaradılıb

Janna Patürl, Sesil Russe, Janna Drue | Fransa | 16 dəq.

Film bir sosioloqun cütlüklərdəki seksual münasibətləri araşdırmasını izləyir. O, 25–45 yaş arası heteroseksual qadınlarla görüşür və onlarla sevgi, istək, arzu və təcrübələri barədə danışır. Müsahibələr kişilərlə qadınlar arasındakı münasibətlərdəki normativ rolları, eyni zamanda seksual və şəxsi azadlığa aparan yolları da üzə çıxarır.

9 iyul 19:32 Landmark / CineClub

---

Retrospektiv: Şantal Akerman

## Evdən xəbərlər

Şantal Akerman | Belçika | 88 dəq.

Məsafə, yaddaş və həsrət haqqında bir film.
1970-ci illərin Nyu-Yorkunu sakit və uzun kadrlarda təqdim edən Akerman fonda anasının Belçikadan ona yazdığı məktubları sakit tonda səsləndirir. Boş metro stansiyaları və yad şəhər mənzərələri arasında bir ana ilə qızının, uzaqdan da olsa, bir-birinə bağlı qaldığı gündəlik, emosional bir hekayə başlayır. Film yad bir şəhərdə yaşamaqla evə duyulan bağlılığın necə iç-içə keçə biləcəyini incəliklə çatdırır.

**Filmdən əvvəl Reyçel Pronqer retrospektivə dair giriş sözü deyəcək**

9 iyul 20:10 Landmark / CineClub

# 10 iyul

Beynəlxalq qısametrajlı sənədli film

## Nilo

Aysedora Karneyro | Braziliya | 17 dəq.

Pandemiyanın təcrid etdiyi vaxtlarda Daniyela tək övladı ilə vidalaşma anlarını xatırlamağa çalışır. Yaddaşını təzələmək üçün hamiləlik dövründə mama-ginekoloqu Giselle ilə səs mesajlaşmalarına yenidən qulaq asır. Daniyelanın həyatı indi boşluqdan ibarətdir. Bu boşluq isə onu əhatə edən su səsləri ilə dolur. Daniyela və sevgilisi Flavio özlərini kloun obrazı “Sous-titre” və musiqi kompozisiyaları vasitəsilə ifadə edərək, adını “Nilo” – yəni “çay” qoyduqları o uşaqla əlaqə yaratmağa çalışırlar.

**Filmdən sonra müzakirə nəzərdə tutulub**

10 iyul 18:00 Landmark / CineClub

---

Beynəlxalq qısametrajlı sənədli film

## Yumşaq dəmir əllər

Yuliya Kuşnarenko | Macarıstan | 13 dəq.

Macarıstanın ilk qadın MMA (qaydasız döyüş) çempionu Melinda Fabian hisslərin və yumşaqlığın qəbul edilmədiyi bu sərt idman dünyasında gənc Zita Mehezə qələbə yolunu göstərir.

**Filmdən sonra rejissor Yuliya Kuşnarenko ilə müzakirə nəzərdə tutulub**

10 iyul 18:47 Landmark / CineClub

Festivallardan seçmələr

# 9 aylıq müqavilə

Ketevan Vaşaqaşvili | Gürcüstan, Almaniya, Bolqarıstan | 79 dəq.

“9 aylıq müqavilə” Tbilisidə yaşayan Jananın hekayəsidir. Jana böyüdüyü yetimxananı tərk etdikdən sonra fasilələrlə küçələrdə yaşayıb, yeniyetmə qızı Elenanı saxlamaq üçün surroqat ana kimi işləməyə məcbur olub.

Surroqat ana olaraq hamiləliyini Elena ilə açıq danışa bilməsə də, Jananın dolanışıq çətinlikləri qurtarmır və özbaşına fəaliyyət göstərən surroqat agentliklərinin, qarnında daşıdığı uşaqların bioloji valideynlərinin manipulyasiyasına məruz qalır. Qanunvericiliyin yaxşı tənzimləmədiyi bir mühitdə Jana bədənini ard-arda doğuşlarla həddən artıq yükləyir. Bu onun psixoloji və fiziki sağlamlığına ciddi mənfi təsir göstərir və həyatını riskə atır. Rejissorun Jana və Elena ilə on illik dostluğu bu filmdə ana-qız münasibətlərinin zamanla necə dəyişdiyinə həssaslıqla işıq salır. Elena anasının gördüyü işin mahiyyətini dərk etdikcə, bunun ikisinə də necə təsir etdiyini anlamağa başlayır. “9 aylıq müqavilə” gözardı edilən bir işin dəhşətli fəsadlarına və təcrübəsinə şahidlik edir.

---

**Filmdən sonra rejissor Ketevan Vaşaqaşvili ilə müzakirə nəzərdə tutulub**

---

10 iyul 19:30 Cinemastercard - Azerbaijan Cinema

# 11 iyul

Festivallardan seçmələr

## Oğurlanmış Planetim

Fərəhnaz Şərifi | İran, Almaniya | 82 dəq.

Dünya sənə “rəqs etmə” desəydi, nə hiss edərdin?
1979-cu ildə İran İslam İnqilabının qadın azadlıqlarını tədricən boğmağa başladığı bir zamanda Tehranda doğulan rejissor Fərəhnaz Şərifi üçün bu sual abstrakt deyil — bu, onun həyatının sualıdır. “Oğurlanmış Planetim” filmində kamera onun üçün həm qalxana, həm də qılınca çevrilir: o, gizli rəqs məclislərini, qapalı qapılar arxasında eşidilən gülüşləri və yasaqlanmış sevincin ağrılı gözəlliyini lentə alır. Eyni zamanda o, tanımadığı insanlara aid ev videolarını toplayır, özünün itirməkdə olduğu xatirələrinə başqalarının videoarxivləri ilə yeni bir baxış əldə edir. Alsheymer xəstəliyindən əziyyət çəkən anası Fərəhnaza unutqanlıqla mübarizə aparmaq üçün ürək-dirək verir. 2022-ci ilin payızında başlayan “Qadın, Həyat, Azadlıq” üsyanı milyonlarla insan, o cümlədən Fərəhnaz üçün də dönüş nöqtəsinə çevrilir. Bir vaxtlar səssiz və təkbaşına olan bu müqavimət indi güclü və ortaq bir hayqırtıdır.

---

**Filmdən sonra müzakirə nəzərdə tutulub**

---

11 iyul | 17:30 | Cinemastercard - Azerbaijan Cinema

---

Festivallardan seçmələr

## Məşuqəqovan

Elizabet Lo | ABŞ, Çin | 94 dəq.

Çində xəyanətlə üzləşən cütlüklərin nikahlarını qorumağa çalışan yeni bir sənaye formalaşıb. Vanq Çenzi getdikcə populyarlaşan bu peşənin nümayəndələrindəndir. O, “məşuqəqovan” kimi tanınır və ailəni qorumaq naminə məşuqələri nəyin bahasına olursa olsun uzaqlaşdırmaq üçün sifarişlər qəbul edir. Adətən bağlı qapılar arxasındakı ailədaxili böhranlara nadir bir baxış təqdim edən bu film Vanqın ayrılmaq ərəfəsində olan bir cütlüyü uçurumun kənarından geri qaytarmaq cəhdini izləyir. Film müasir Çində gah ərin, gah arvadın, gah da məşuqənin perspektivini göstərməklə emosiyalar, praqmatiklik və ənənələrin toqquşmasından doğan romantik münasibətləri araşdırır.

11 iyul | 17:30 | Landmark / CineClub

Beynəlxalq qısametrajlı sənədli film

## Zəriflıklə zorakılıq arasında

Şirin Bahar Demirel | Türkiyə, Hollandiya | 15 dəq.

“Zəriflıklə zorakılıq arasında” eksperimental sənədli filmdir. Bu film əllərimizi xatirələrin toplandığı və ötürüldüyü məkanlar kimi göstərir. Film təmtəraqlı, göstəriş üçün hazırlanmış ailə fotoalbomlarında rast gəlməyəcəyiniz, unudulmuş xatirələrin izinə düşür və bu xatirələri əllər və onların yaratdığı şeylər vasitəsilə gün üzünə çıxarmağa çalışır.
Bir rəssamın fırça izlərinə baxanda eyni əlin zorakılığını da sezə bilərikmi? Çarpaz tikiş nəyinsə əlifbası ola bilərmi? Bu film təxəyyül və yaradıcılıq vasitəsilə rejissorun şəxsi tarixçəsi ilə bağ qurur, məişət zorakılığı, nəsillərarası travma və ona qarşı müqavimət kimi geniş insan hekayələrini əhatə edir.

11 iyul 19:05 Landmark / CineClub

---

Panel müzakirəsi

## Qadınlar kameranın arxasında və önündə: Azərbaycan kino sektorunda gender-əsaslı ayrı-seçkiliklər

**Müzakirə Azərbaycan dilində baş tutacaq**

11 iyul 19:45 Landmark / CineClub

---

Retrospektiv: Şantal Akerman

## No Home Movie

Şantal Akerman | Belçika | 115 dəq.

Ev bəzən fiziki məkan deyil, bir insandır. Akermanın ölümündən əvvəl çəkdiyi son film, “No Home Movie”, anası ilə münasibətinə həsr olunmuş dərin və sarsıdıcı sevgi etirafıdır.
Film Brüsseldəki kiçik mənzildə yaşayan, Holokostdan sağ çıxmış anası Nataliya ilə qızı arasındakı emosional körpüdür. Bu, sadəcə ailə portreti deyil, həm də bir vida, bir epiloq və bir həyatın son notudur.

11 iyul 20:50 Landmark / CineClub

# 12 iyul

Festivallardan seçmələr

## Texasa qarşı Zuravski

Meysi Krou, Abbi Perro | ABŞ | 98 dəq.

Texasın müəmmalı və sərt qadağaları ucbatından abort hüququndan məhrum edilmiş qadınlar cəsarətli bir vəkillə əl-ələ verərək Texas ştatını məhkəməyə verirlər. Ştat rəhbərliyi və onun güzəştə getməyən baş prokuroru ilə aparılan hüquq mübarizəsi qadınların öz reproduktiv gələcəklərini geri qazanmaq və milyonlarla ailə və qadın üçün presedent yaratmaq arzularını əks etdirir. Bu mübarizə onların yaşadığı travmatik təcrübələrin miqyasını miqyasını üzə çıxarır. “Texasa qarşı Zuravski” filmi səhiyyə xidmətinə çıxışın itirilməsinin dəhşətli fəsadlarını bizə göstərir. Filmdə qadın və kişilərin öz hüquqlarını yenidən təmin etmək üçün apardıqları fövqəladə mübarizə təqdim olunur.

12 iyul 14:30 Landmark / CineClub

Festivallardan seçmələr

## Ruhunu əlinə al və yola düş

Sepide Farsi | Fransa, Fələstin | 110 dəq.

“Ruhunu əlinə al və yola düş” filmi Qəzzada mühasirə altında yaşamağın nə demək olduğunu birbaşa və olduqca məhrəm bucaqdan təqdim edir. Film iranlı rejissor Sepide Farsi ilə gənc fələstinli fotojurnalist Fatma Hassona arasında 200 gündən artıq müddətdə “WhatsApp” üzərindən baş tutan videozənglər əsasında qurulub. Filmin Kann kinofestivalına seçilməsi xəbəri yayıldıqdan cəmi bir gün sonra Fatma İsrailin hava hücumu nəticəsində ailə üzvləri ilə birlikdə evində həyatını itirib. Dərin insani çalarlarla zəngin olan “Ruhunu əlinə al və yola düş” filmi bitib-tükənməyən müharibə dövründə bir nəslin gündəlik həyatını onların öz gözlərindən təqdim edir.

**Filmdən sonra müzakirə nəzərdə tutulub**

12 iyul 16:20 Landmark / CineClub

Xüsusi nümayiş

## Satyrusun axtarışında

Rəna Əffəndi | Azərbaycan | 101 dəq.

Fotoqraf Rəna Əffəndi öyrənəndə ki nadir kəpənək növü — Satyrus effendi (azərbaycanca “Əffəndi məxmərisi”) — onun mərhum atası, tanınmış Sovet Azərbaycanı alimi, entomoloq Rüstəm Əffəndinin adını daşıyır, səyahətə çıxmağa qərar verir. Rəna atasının izindən gedərək, Azərbaycanla Ermənistan arasındakı dağlıq sərhəd bölgələrində, hərbiləşdirilmiş zonalarda dolaşır, onu xatirələrlə üz-üzə gətirən uzun və şəxsi bir səfərə başlayır. Parçalanmış Qafqazın hər iki tərəfində çəkilən "Satyrusun axtarışında" filmi itki, yaddaş və miras mövzularını şəxsi prizmadan araşdıran sənədli hekayədir. Əl ilə çəkilmiş xəritələr, sevgi məktubları, çürüməkdə olan kəpənək nümunələri və müharibənin yaraladığı mənzərələr vasitəsilə Rəna Əffəndi illərlə qopmuş bir bağın izinə düşür — atasını yaxından tanımağa və özü ilə keçmiş arasındakı əlaqəni yenidən qurmağa çalışır.
Kəpənək sorağı ilə başlayan bu səyahət şəxsi kədərin və bir ölkənin mürəkkəb tarixinin qovuşduğu təsirli bir axtarışa çevrilir.

---

**Filmdən sonra rejissor Rəna Əffəndi ilə müzakirə nəzərdə tutulub**

---

12 iyul 19:00 Cinemastercard - Azerbaijan Cinema

# 13 iyul

## Qapanış mərasimi

13 iyul 19:00 Landmark / CineClub

SEVİL BEYNƏLXALQ
QADIN SƏNƏDLİ
FİLM FESTİVALI